14 iyul 2017-ci il, cümə XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 286** **Bakı şəhəri, 13 iyul 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 25 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük ödənişlərinin qaytarılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 517-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 mart tarixli 1269 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 25 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 194; 2015, № 5, maddə 636) ilə təsdiq edilmiş "Gömrük ödənişlərinin qaytarılması Qaydaları"nın 2.1.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.3-cü yarımbənd əlavə edilsin:

"2.1.3. "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda.".

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***